HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 İYUL 2019-CU İL/ №014 (94)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



3



5



6



“BİR QƏDƏR QƏZETÇİLİK DƏRSİ”

XEYİR İŞLƏRDƏ YARIŞIN

KÜTLƏVİ UZUNLUQ

NİYƏ YAXŞI TƏHSİL VƏ PERSPEKTİVLİ İŞ ƏLDƏ ETMƏK BU QƏDƏR ÇƏTİNDİR?

## PARLAMENT SƏDRİ TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Parlament sədri Arçil Talakvadze Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqanla görüşüb. Görüşdə Gürcüstan və Türkiyə arasında əlaqələr, parlamentlərarası və ticari-iqtisadi əməkdaşlıq məsələləri müzakirə olunub.

A.Talakvadze və F.C.Yazqan iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, Gürcüstanda biznes mühit və Türkiyə investisiyaları üçün imkanları da nəzərdən keçiriblər.

Görüşün əsas müzakirə mövzularından biri regiondakı vəziyyət və təhlükəsizliyə təhdidlər olub.

Səfir Türkiyənin Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı mövqeyini bir daha diqqətə çatdırıb.

## GÜRCÜSTANDA NATONUN “ÇEVİK RUH 2019” TƏLİMİ BAŞLAYIB

Gürcüstanda NATO-nun “Agile Spirit 2019” (“Çevik ruh 2019”) çoxmillətli hərbi təlimi başlayıb. Bu barədə ölkənin Müdafiə Nazirliyi məlumat yayıb.

Təlimlərdə Gürcüstanla yanaşı Bolqarıstan, Belçika, Böyük Britaniya, ABŞ, Yunanıstan, Latviya, Litva, Monteneqro, Rumıniya, Polşa, Norveç, Türkiyə və Ukraynadan olan 3000-dən çox hərbçi iştirak edir.

Avqustun 9-na qədər davam edəcək təlim 3 məkanda keçiriləcək.

Təlimin keçirilməsində məqsəd iştirakçı ölkələr arasında funksional uyğunluğun gücləndirilməsi, çoxmillətli mühitdə əməliyyatların planlaşdırılması və həyata keçirilməsi imkanlarının artırılması və Qara dəniz regionunda sabitlik və təhlükəsizliyin qorunmasına töhfə verməkdir.



Qeyd edək ki, NATO-nun “Çevik ruh” təlimi Gücüstanda 2011-ci ildən etibarən keçirilir. Bu təlimlər Gürcüstanın ABŞ və NATO ilə əməkdaşlığının komponentlərindən biridir.

## İRAKLİ OKRUAŞVİLİ HƏBS OLUNUB



Tbilisi Şəhər Məhkəməsinin qərarı ilə keçmiş müdafiə naziri, “Qalib Gürcüstan” siyasi hərəkatın lideri İrakli Okruaşvili ilə bağlı həbs qətimkan tədbiri seçilib.

İrakli Okruaşvilinin vəkili onun 10 min lari girov müqabilində azadlığa buraxılmasını tələb edib.

Qeyd edək ki, İ.Okruaşvili iyunun 20-21-də Tbilisidə baş verən hadisələr zamanı kütləvi zorakılığın təşkili, ona rəhbərlik və iştirak etməkdə ittiham olunur. O özünü günahkar hesab etmir. Günahı sübuta yetiriləcəyi təqdirdə onu dörd ildən doqquz ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ MARNEULİDƏ GƏNCLƏR VƏ ZİYALILARLA GÖRÜŞÜB

“Kvemo Kartlidə, Marneulidə yerli icma ilə görüşdüm, çay içərək ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən məsələləri müzakirə etdik”. Bu barədə Gürcüstan parlamentinin sədri Arçil Talakvadze özünün “Facebook” səhifəsində yazıb.

O bildirib ki, gürcü və azərbaycanlılar arasında qardaşlıq və münasibətlər çox dəyərlidir: “Bizi vətən və gələcəyimiz birləşdirir. Gənclərlə siyasətdən, təhsil islahatlarından, işlə təminat barədə və iqtisadi imkanlarımızdan danışdıq. Maraqlı təşəbbüslər irəli sürüldü və biz onları növbəti görüşümüzdə - parlamentdə gəncləri qəbul edərkən müzakirə edəcəyik”.

Qeyd edək ki, Arçil Talakvadze iyulun 28-i Marneuli rayonunda olub. Spiker Marneuli gəncləri və ziyalıları ilə görüş keçirib. A.Talakvadze rayonun qayğıları və yerli sakinləri narahat edən məsələlərlə tanış olub.



Görüşlərdə Marneuli rayonunun icra başçısı Zaur Darğallı, parlamentin deputatları Tamaz Naveriani, Savalan Mirzəyev, Marneuli sakrebulosunun sədri Amiran Giorqadze də iştirak edib.



# "BİR QƏDƏR QƏZETÇİLİK DƏRSİ"

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Böyük Üzeyir bəy Hacıbəylinin "Bir qədər qəzetçilik dərsi" adlı felyetonunda müəllim şagirdlərdən soruşur ki, bəs "Qəzetə hər bir şey yazmaq olarmı?", şagirdlər isə qəti olaraq "Xeyr, olmaz!" deyə cavab verirlər və müəllim şagirdlərdən qəzetin başında "Hürriyyət" yazılıbsa necə olmaz, deyə soruşduqda, şagirdlər belə cavab verirlər: "Doğrudur, hürriyyət yazılıbdır, amma hürriyyət ondan ötrü yazılmayıbdır ki, hər kəsin ağlına nə gəlsə, götürüb qəzetə vurdursun".

Bəli, əziz və hörmətli oxucu, qəzetə hər bir şey yazmaq olmaz. "Çünki o halda qəzet nə olar?" "O halda qəzet zibil səbəti olar" *(Yazıda dırnaq içərisindəki ifadələr Ü.Hacıbəylinin "Bir qədər qəzetçilik dərsi" felyetonundandır).*

Bu yazını ünvanımıza gələn, amma və lakin qəzetimizdə çap olunmayan yazıların müəlliflərinə cavab olaraq qələmə alıram. Ey hörmətli yazı göndərənlər, əvvəla yazılarınızın yayımlanması üçün Yeni YOLu seçdiyiniz üçün sizə dəruni təşəkkürümü bildirirəm. Əməyinizə və zəhmətinizə hörmət edərək, bizdən inciməməyinizi rica edirəm. Çünki elə bir çoğrafi, siyasi, iqtisadi mühitdə yaşayırıq ki, kiminsə kimdənsə inciməyə haqqı yoxdur. İnciməyə qalsa "Qəzetin müdiri yazı yazıb da yazdığı çap olunmayandan inciməlidir." "Nə üçün?" "Çünki yazı yazıb da yazdığı çap olunmayan müdirin qəzetini zibil səbətinə döndərmək istəyirmiş. (Bəzi yazı yazıb da yazdıqları çap olunmayan şəxslərdən təvəqqə olunur ki, bu sözlərdən hələ tez inciməyib, dərsin dalına qulaq assınlar)".

Bilirsiniz ki, Yeni YOL səkkiz səhifəlik ictimai qəzetdir, ayda iki dəfə çıxır, qəzet ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Bu haqda dəfələrlə yazmışıq da, danışmışıq da, biz bədii mətnlər – şeir, poema, hekayə çap etmirik, əzizlərim. Bunun üçün Gürcüstan Yazıçılar Birliyinin Azərbaycan bölməsi və Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsi var. Bədii mətnlərinizi bu qurumlara ünvanlasanız daha münasib olar.

Sual: "Bəs qəzetə nə tövr məqalə yazmalıdır ki, çap olunsun?" Cavab: "Əvvələn, qəzetin məsləkinə müvafiq olsun." Məsələn, "tərəqqiyə mane olan şeylər rəf edilsin", "mətbuat qanunlarına müğayir olmasın", "qərəzi-şəxsi ilə yazılmasın", "şəxsi işlər yazılmasın", "bimənə şeylər yazılmasın", "fitnə və fəsad qovzayan olmasın", həmçinin tərif və təhqir yazıları olmasın, yubiley yazıları olmasın, nekroloq olmasın, şeir, poema, hekayə, romandan parça olmasın, başqa yerlərdə dərc edilmiş yazı olmasın, əlyazma olmasın (elektron olsun) və ən əsası da göndərilən yazılar haqqında rəy istənilməsin.

Əgər faktlara əsaslanan qərəzsiz, obyektiv yazılarınız varsa, Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı maraqlı faktlar aşkarlamısınızsa, maraqlı tərcümələr etmisinizsə (istənilən dildən), istənilən sahəyə aid problemləri işıqlandırmaq istəyirsinizsə, gündəmdə olan olaylarla bağlı fikir, rəy bildirmək istəyirsinizsə, təcrübələrinizlə bölüşmək istəyirsinizsə, elmi-publisistik, maarifləndirici yazılarınız varsa, o zaman Yeni YOLda addımlaya bilərsiniz. Orijinal və eksklüziv yazıların müəllifləri üçün gücümüz çatandan honorar da veririk.

**Özünüz də yaxşı bilirsiniz ki, ictimai tribunamız olan vur-tut bir qəzetimiz – Yeni YOLumuz qalıb. Əvvəl nəşr edilən qəzetlərimizin çoxu maliyyəsizlikdən nəşrini dayandırdı (Çünki bizdə qəzetə pul verib alan yoxdur). Bu da ümumi dərdlərimizdəndir. İndi Yeni YOLu da bizə çox görənlər var. Xüsusən də yaşlı nəslin "ziyalı" təbəqəsinin Yeni YOLu gözü götürmür. Çünki qəzetin adında YENİ sözü var, hansı ki, onlara yaddır, çünki qəzetdə gənclərin yazıları daha çox dərc edilir, çünki onların sevimli janrı olan mədhiyyəyə qəzetdə yer yoxdur, çünki şəxsi münaqişələrini qəzetə çıxara bilmirlər, qəzetdən silah kimi istifadə edə, məqalə ilə adam qorxuda, şantaj edə bilmirlər (Sovet vaxtında elədikləri kimi).**

"Çox gözəl, dərsinizi yaxşı bilirsiniz. Əgər müsəlman yazıçıları da bu dərsləri əzbərləsəydilər nə olardı?"

"Özlərinin və müdirin vaxtını zay etməzdilər. 7 qəpiklik markanı, iki qəpiklik mürəkkəbi və bir qəpiklik qələmi kor qoymazdılar və zibil səbətini ağzınadək doldurub xidmətçinin də əziyyətinə səbəb olmazdı-lar."

"Ay olaydı, ha!"

## MAMUKA BAXTADZE: "ANAKLİA LİMANI OLMADAN GÜRCÜSTAN ÖZÜNÜN TRANZİT POTENSİALINI TAM REALLAŞDIRA BİLMƏYƏCƏK"



"Anaklia layihəsinin bizim üçün strateji əhəmiyyəti var və biz əlimizdən gələni edəcəyik ki, Gürcüstanın dərin dəniz limanı olsun". Bunu baş nazir Mamuka Baxtadze jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, dərin dəniz limanı olmadan Gürcüstan özünün tranzit potensialını tam reallaşdıra bilməyəcək: "Buna görə də bu layihənin strateji önəmi var. Anaklia layihəsi həyata keçirilməlidir və keçiriləcək".

Qeyd edək ki, Anaklia dərin dəniz limanının bünövrəsi 2017-ci ildə qoyulub. Limanın 2021-ci ildən fəaliyyətə başlayacağı nəzərdə tutulur. Son illər hökumət və investorlar arasında Anaklia ilə bağlı fikir ayrılıqları yarandığından layihənin təxirə salınacağı bildirilirdi.

2017-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Anaklia limanı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Bu yaxınlarda Fransanın "Eiffage" şirkəti Anaklia dərin dəniz limanının baş inşaatçısı seçilib.

## NATİA TURNAVA: "İNVESTORLAR ARASINDA GÜRCÜSTANLA BAĞLI MƏNFİ GÖZLƏNTİLƏR MÜŞAHİDƏ OLUNUR"



"Rusiyanın tətbiq etdiyi məhdudiyyətlərlə bağlı mənfi gözləntilər larinin ucuzlaşmasına səbəb olub". Bu barədə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava milli valyutanın dəyərdən düşməsini şərh edərkən bildirib. Nazir Gürcüstanda makroiqtisadi mühitin sağlam olaraq qaldığını deyib.

"Mənfi gözləntilər investorlar arasında da müşahidə olunur. Biz bu istiqamətdə mümkün qədər pozitiv mesajlar yaymağa çalışırıq. Sözsüz ki, siyasi qeyri-sabitlik investisiya mühitinin də qeyri-sabitliyinə səbəb olur və bu da valyutaların kursunda əks olunur", - deyə N.Turnava bildirib.

O qeyd edib ki, siyasi proseslərin sabitləşməsi larinin kursunun daha tez sabitləşdirilməsinə kömək edəcək.

Qeyd edək ki, iyulun 8-dən Rusiyanın Gürcüstana birbaşa aviauçuşlara tətbiq etdiyi qadağadan sonra larinin dollara qarşı ucuzlaşması davam edir.

## PENSİYA AGENTLİYİ VƏTƏNDAŞLARA XƏBƏRDARLIQ EDİR



Pensiya Agentliyinin adı ilə sosial şəbəkədə fırıldaqçı veb-səhifə yayımlanıb və vətəndaşlara yığım pensiyalarını yoxlamağı təklif edir. Aplikasiyaya daxil olduqda isə bank hesabını yazmağı tələb edir. Pensiya Agentliyindən bildiriblər ki, yığılan pensiyanın yoxlanılması üçün bank kartı və ya hesab nömrəsinə ehtiyac yoxdur. Belə ki, agentlik bütün istifadəçilərə xəbərdarlıq edir ki, pensiyalarını yoxlamaq üçün yalnız "pensions.ge" səhifəsindən istifadə etsinlər: "Həmçinin əhali bilməlidir ki, Pensiya Agentliyinin veb-səhifəsindən qeydiyyat və şəxsi səhifəyə daxil olmaq üçün kart və ya hesab nömrəsi lazım deyil. Agentliyin səhifəsində istifadəçi yalnız şəxsi nömrəsini və fərdi kodu daxil etməlidir".

Xatırladaq ki, bu, agnetliyin adı ilə oxşar fırıldaqçı veb-səhifənin yaradılması ilə bağlı ilk hal deyil. Əvvəl baş vermis hallar isə artıq aradan qaldırılıb.

## GÜRCÜSTAN HÖKUMƏTİ RUSİYADAN TRANZİT UÇUŞLARA 600 MİN AVROYA QƏDƏR SUBSİDİYA ÖDƏYƏCƏK

Gürcüstan hökumətinin qəbul etdiyi qərara əsasən, Gürcüstan Rusiyadan tranzit uçuşlara 600 min avroya qədər subsidiya ödəyəcək.

Qərar Gürcüstandan Ermənistanın paytaxtı Yerevan vasitəsilə Tbilisi və Batumiyə uçuşlara aiddir və bir sərnişin üçün 90 avrodan çox olmayan məbləğ (ƏDV-siz) nəzərdə tutulub.

Sazişin hansı aviaşirkətlə imzalanacağı məlum deyil. Hazırkı mərhələdə yalnız "Gürcüstan hava yolları" şirkəti Rusiyadan Yerevan vasitəsilə Ermənistanın tərəfdaş şirkətinin dəstəyi ilə Gürcüstana sərnişin daşıyır.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU VASİTƏSİLƏ TÜRKİYƏDƏN GÜRCÜSTANA YÜK DAŞIMALARINA BAŞLANILIB

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu vasitəsilə Türkiyədən Gürcüstana yük daşımalarına başlanılıb. Türkiyənin Ərzurum yaxınlığındakı loqistika mərkəzindən beş vaqondan ibarət ilk ixrac yük qatarı iyulun 23-ü Gürcüstana yola salınıb.

Mərasimdə "Türkiyə Dövlət Dəmiryolları" şirkətinin baş direktoru Əli İhsan Uyğun və "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru Davit Peradze iştirak ediblər.




D.Peradze Türkiyədən Gürcüstana BTQ ilə ilk yük daşınmasını tarixi hadisə adlandırıb: "Gürcüstan və Türkiyənin dəmir yolları tarixində bu gün vacib gündür. İlk dəfə olaraq Türkiyədən Gürcüstana yüklər dəmir yolu vasitəsilə idxal olunur. Gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yük daşımalarının həcminin artacağına ümid edirik".

Baş direktor Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava və



Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahitə layihəyə göstərdikləri dəstəyə görə minnətdarlığını bildirib.

Əli İhsan Uyğun bildirib ki, "Türkiyənin hədəfi Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə daşımaların həcminin artırılmasına nail olmaqdır".

O, BTQ ilə Türkiyədən Gürcüstana müxtəlif sənaye məhsullarının daşınacağını deyib: "Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə daşımaları artırmaq məqsədilə dost və qardaş Gürcüstanla yaxın əməkdaşlıq həyata keçirilib. Bu gün Gürcüstana ilk yük qatarı yola salınıb. Bundan sonra Gürcüstana illik 120 min ton dəmir filizi daşınacaq".

Ə.İ.Uyğun Türkiyənin BTQ dəmir yolu layihəsinin həyata keçirilməsinə böyük önəm verdiyini vurğulayıb. "2017-ci ildə istifadəyə verilən bu xətt üzərindən Türkiyə, Azərbaycan və Qazaxıstan arasında yük daşımaları reallaşdırılıb", - deyə o bildirib.

## TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN FINDIQ İSTEHSALINDA ƏMƏKDAŞLIĞA BAŞLAYIBLAR

Türkiyə, Azərbaycan və Gürcüstan fındıq istehsalı sahəsində əməkdaşlığa başlayır. Bu haqda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

Türkiyə prezidenti həmçinin qeyd edib ki, Türkiyə, Azərbaycan və Gürcüstan dünya bazarına fındıq ixrac edən geniş ixracatçılardır və bu sahədə onların əməkdaşlıq etməsi olduqca vacibdir: "Türkiyə, Azərbaycan və Gürcüstan dünya bazarına 80% fındıq ixracı həyata keçirən ölkələrdir".

R.T.Ərdoğan bildirib ki, fındığın



istehsalı sahəsində bu üç ölkənin əməkdaşlığı dünya bazarında bu ərzağın tədarük həcmini artıracaq.

## "GÜRCÜSTANLI TİBB TƏLƏBƏLƏRİNİN TÜRKİYƏDƏ TƏCRÜBƏ VƏ GƏZİNTİ PROQRAMI" ADLI LAYİHƏYƏ START VERİLİB

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) təşkilatçılığı ilə Gürcüstanda tibb fakültəsində təhsil alan 30 nəfər tələbə iyulun 27-si Türkiyənin Bursa şəhərində təcrübə keçmək üçün yola salınmışdır.

Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB), Uludağ Universitetinin və Bursa Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə baş tutacaq "Gürcüstanlı tibb tələbələrinin Türki-



yədə təcrübə və gəzinti proqramı" adlı layihə 30-gün davam edəcək.

## XEYİR İŞLƏRDƏ YARIŞIN



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Xoşbəxt cəmiyyətlər o cəmiyyətlərdir ki, fərdləri sağlamdır. Cürbəcür xəstəliklərdən bədəninin bəzi orqanları işləməyən insanlar normal həyat sürə bilmirlər. Bəzən başqalarının köməyinə ehtiyac duyarlar. İnsan tək başına yaşaya bilmədiyi kimi ehtiyaclarını da öz başına qarşılaya bilməz. Bu səbəbdən cəmiyyətdəki insanların bir-birlərilə köməkləşmələri lazımdır. Ehtiyacı olan insanlara pulla köməklik etmək, yaxşı və pis günlərini paylaşmamız cəmiyyətdəki uyğunlaşmanı artırar. Cəmiyyətin gücünün artmasıyla birlikdə üzərimizə düşən vəzifəmizi də yerinə yetirmiş olarıq.

Allah (c.c.) biz müsəlmanlara "Xeyir işlərində yarışın" (Bəqərə, 148) deyə buyurmuşdur.

Müsəlman xeyir və xidmət əhlidir. Xeyirxahdır. Müsəlmanlara xeyir işlərində yarışmaq yaraşır. Çünki ən böyük mükafat bu yarışdadır. Qurani-Kərimdə "Təqva sahibləri üçün hazırlanmış Cənnətə qaç"mamız əmr edilir (Ali İmran, 133)

Müsəlmanlar hər şeydə orta yolu tutmağa dəvət edilərkən, xeyir işlərdə yarışa çağırılması çox mənalıdır. Yaxşılıq yarışı elə müqəddəsdir ki, bu yarış Cənnətlə nəticələnər.

Peyğəmbər əfəndimiz (s.ə.s.) bu mövzuda belə buyurmuşdur: "Faydalı işlər görməkdə tələsin... Çünki yaxın bir gələcəkdə qaranlıq gecələr kimi bir sıra fitnələr ortalığı örtəcək. O zamanda insan mömin olaraq sabahlar, kafir olaraq gecələr, mömin olaraq gecələr, kafir olaraq sabahlar. Dinini kiçik bir dünyalığa satar" (Müslim, İman 186).

Bu hədisi-şərif üzərində çox düşünmək lazımdır. Faydalı işlərdə və xidmətlərdə tələsmək tövsiyə edilir.

Yaxşılıq etməyi, faydalı işlər görməyi şeytan və nəfs istəməz. Onun üçün nəfs və şeytan bu cür işlərin daim təxirə salınmasını istəyər. Onlara əsla etibar etmək olmaz. Az əvvəl sizlərə tərcüməsini nəql etdiyim hədisdə bu əhəmiyyətli nöqtəyə diqqət çəkməkdə məqsəd, qaranlıq gecələr kimi fitnələrin ortaya çıxmasından əvvəl yaxşı işlərin görülməsinin lazım olduğunu xatırlatmaqdır. Ortalıq elə qarışıq ola bilər ki, Allah qorusun, insan mömin olaraq oyanarkən o günün axşamına kafir olaraq girə bilər və ya mömin olaraq girdiyi gecənin səhərinə kafir olaraq çıxa bilər. Bu sözün tam mənasıyla fitnə və qarışıqlıq mühitidir. Fitnə mühitlərində kimsə nə etdiyini, hətta nə edəcəyini belə bilməz. Müsəlmanlar belə ağrılı günləri tarix boyu zaman zaman yaşamışlar.

Əsla gözardı etməyək ki, pislər və pisliklər ancaq yaxşılar və yaxşılıqları çoxaltmaq və dəstəkləmək surətilə önlənə bilər. Bizlərin vəzifəsi də budur. Necə ki, əcdadlarımız etmişdilər.

Xeyriyyəçilik və yardımlaşma ilə yoxsullar qorunmuş olar. Onlara edilən maddi köməklər onların oğurluq kimi pis yollara düşmələrinin qarşısını alar.

Kömək edənlə edilən arasında sevgi və ülfət doğular. Köməklə cəmiyyətə qazandırılan insanlar kin, həsəd, düşmənçilik kimi pis xasiyyətlərdən xilas olar, kimsənin malında gözü olmaz.

Hz. Məhəmməd (s.ə.s) müsəlmanlara kömək edilən deyil, kömək edən adam olmalarını bildirmişdir. Çətinlik zamanında müsəlmanlardan kömək, anlayış və sevgi görənlər, çətinliklərini sovuşdurunca kömək istəyən deyil kömək edən kəslər olmağa çalışacaq.

Zəkat, sədəqə və digər maddi köməklər müsəlmanların güclü olmalarında, birlik və bərabərlik içində olmalarında ən böyük faktordur. Köməkləşmə zənginlə-kasıb, toxla-ac arasındakı uçurumu aradan qaldırıb sevgi, hörmət bağı qurar.

Köməkləşmənin məşhur olduğu cəmiyyətlərdə dostluq duyğuları güclü olar. Kasıblıq və bununla gələn dilənçilik ortadan qalxar.

Odur ki, qarşıdan gələn Qurban bayramında kəsdiyimiz ətləri soyuduculara doldurub saxlamaq əvəzinə ətrafımızda olan ehtiyac sahibləri ilə bölüşməyimiz də qurbanın əsas mahiyyətini dərk etməmizə yardımçı olar. Çünki savablar paylaşdıqca çoxalar. Sən öz evində yediyindən başqa evdəkilərə də yedirmən səni Cənnətə götürəcək vəsilələrdən ola bilər.

Qarşıdan gələn Qurban bayramınızı təbrik edir, qurbanlarınızın Allah qatında qəbul olmasını, həqiqi qurban olmasını diləyirəm...

# BERİKA ŞUKAKİDZE: "YENİ MƏKTƏB MODELİ" PEDAQOQLAR ÜÇÜN "YUXARIDAN AĞIL VERƏNLƏRİN" OLMADIĞI İSLAHATDIR

*"Çox qısa müddətdə "Yeni məktəb modeli"nin həyata keçirilməsindən sonra yaxşı mənada təəccübləndim. Pedaqoqlarla açıq və həmkar söhbətində isə məlum oldu ki, onların əksəriyyəti qeyd olunan dəyişiklikdən razıdır"* – ***"Etaloni.ge" ilə söhbətində Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzinin rəhbəri Berika Şukakidze "Yeni məktəb modeli"ni belə qiymətləndirir və qeyd edir ki, bu, hər növ nəzarətdən kənar islahatdır. Prosesi pedaqoqlar idarə edir.***

**İslahat 2018-2019-cu tədris ilinin ikinci semestrindən Gürcüstanın beş regionunun 62 məktəbində həyata keçirilməyə başlanıb. Layihənin dəstəkçi qruplarının əsas məqsədi məktəblərə məktəb klimatı və tədris keyfiyyətinin təkmilləşdirilməsində dəstək olmaq və pedaqoqlarla sonrakı istiqamətlərdə kouçinq prinsipi ilə çalışmaqdır: Məktəb-tədris planının inkişafı və əsasının qoyulması; Məktəbin idarəsinin effektiv yanaşmalarının inkişafı və rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası. "Yeni məktəb modeli" hələ ki, yalnız I-IV siniflərin bazasında həyata keçirilir.**

**Layihənin təşəbbüskarlarından biri və fəal dəstəkçisi Berika Şukakidze islahatın ilkin nəticələrini qiymətləndirmə məqsədi ilə 20-yə qədər məktəbə baş çəkib və kouçlarla və layihəyə qoşulmuş pedaqoqlarla səmimi söhbət edib:**

– Milli tədris planının araşdırmasına əsasən, layihəyə qoşulan 62 məktəb də dəyərləndirilib. İndi də həmin məktəblərin direktorları, kouçları və qrupları ilə görüşlər aparılır və təqribən 3-4 günə başa çatacaq. 20-yə yaxın məktəbə şəxsən getdim və orada problem müəyyən edildi. Məni daha çox şagirdlərin fikri maraqlandırırdı. Amma tətilə görə onlarla görüşə bilmədim. Müəllimlərin fikri ilə bağlı isə deyim ki, mən qısa müddət ərzində əldə olunan nəticələrə görə yaxşı mənada təəccübləndim. Müəllimlərlə açıq, həmkar kimi söhbətdən sonra məlum oldu ki, qeyd olunan islahat onlara lider olmaq üçün motivasiya verir. Eləcə də, kouçların demək olar əksəriyyəti özünü doğruldub.

Pedaqoqların ən çox xoşuna gələn odur ki, onlara kimsə nəyisə etməyi əmr vermir, tədris planını özləri planlaşdırırlar, dərs prosesini planlaşdırırlar, özləri islahata qoşulublar, yuxarıdan onlara "ağıl verən" yoxdur. Kouçlar onlarla birgə tədris modellərini müzakirə edirlər, dərsin planlaşdırılmasını öyrədirlər, onlar müəllimlərin köməkçisidirlər və birgə otururlar, çalışırlar. Bizim qrupdan, ekspertlərdən, pedaqoqlardan eşitdiyim və öz gözümlə gördüyüm ilkin qiymətləndirmə müsbət və uğurludur.

**"Yeni məktəb modeli" hələ yalnız I-IV siniflərə daxil edilib. Berika Şukakidze bildirib ki, islahat yanvardan bütün başlanğıc pilləni, sonra isə mərhələli şəkildə baza və orta pillələri də əhatə edəcək:**

– Yanvardan çalışacağıq ki, milli planla yanaşı mərhələli şəkildə başlanğıc pilləyə altıncı sinif də daxil olmaqla başlayaq, sonra isə 2022-ci ilə qədər və ya daha tez layihə bütün məktəb və bütün pillələri əhatə etməlidir. Ən maraqlısı isə odur ki, yeniliyin əsası qoyulduqdan sonra qış və ya yay tətili olan zaman bu layihədə təcrübənin, əldə olunan nəticələrin və ümumiyyətlə, tendensiyaların qiymətləndirilməsi ediləcək. Yəni biz bunu məktəb icmasının – müəllim, şagird, valideyn, rəhbərliyin necə qəbul etdiyinə baxırıq ki, onlar bu prosesə necə qoşula bilərlər.

**Onun qiymətləndirməsinə görə, "Yeni məktəb modeli" dünya standartlarına istinadən hazırlanıb və gürcü müəllimlərin bu standartlardan sinif otağında necə istifadə edə biləcəyi vacibdir:**

– İndiyə qədər təhsildə tanış olan tədris metodları və strategiyaları nə gürcü, nə fin, nə də sinqapurlunun deyil. Dünya ictimaiyyəti bizim istifadə etdiyimiz bu təhsil metodu və strategiyası ilə razılaşıb. Məsələ odur ki, gürcü müəllimlər bundan sinif otağında nə dərəcədə effektli itifadə edəcəklər. İlk mərhələdə layihəyə 62 məktəb qoşulub, sentyabrdan daha 100 və daha çox məktəb əlavə olunacaq. Bu, hələlik dəqiq müəyyən olunmayıb. Müəllimlər Evinin keçirdiyi direktorların kouç müsabiqəsi yeni başa çatıb, çox yaxşı namizədlər seçilib. Kurikulum, IT ekspertlər və kurikulum ekspertinin köməkçisi müsabiqəsi və təlimləri isə 29 iyuldan başlayacaq.

**Müəllimlər Evinin rəhbərinin açıqlamasına görə, müəllimin narazılıq edə biləcəyi yeganə səbəb bu ola bilər ki, "Yeni məktəb modeli" gec, ikinci semestrdən qüvvəyə minib və daha çox effekt əldə etmək üçün məktəbin vaxtı qalmayıb. Layihəyə yeni tədris ilindən qoşulan məktəblərdən isə müsbət nəticə gözləntisi daha çoxdur.**

**İzah**

**Kouçinq** (coaching) – insanların könüllü, şüurlu və planlı şəkildə daxil olduqları öyrənmə və şəxsi inkişaf prosesidir. Həyatlarında müsbət dəyişikliklərə qərar verən insanlar yüksəlmək istədikləri inkişaf pillələrinə çatmaq üçün **kouç** adlanan şəxsi inkişaf müəlliminin müşayiəti ilə ruhi və zehni səyahətə başlayırlar. Kouçinqin əsas məqsədi – bu xidməti alan şəxsin (coachee – **koçi**) potensialının kəşf olunması, özünə inamının və motivasiyasının artırılması, bacarıq və imkanlarının inkişaf etdirilməsi, ona mane olan sərhədlərin və sədlərin yıxılaraq, performansının maksimuma çatdırılmasıdır. Kouçinq prosesinə daxil olan şəxslər həyatlarının, gələcəklərinin, düşüncə, davranış və addımlarının məsuliyyətini öz üzərinə götürərək, daha böyük özünəinam və həvəslə şəxsi həyatlarında nizam-intizam yaratmağa başlayırlar.

# DÜNYANIN MÜXTƏLİF ÖLKƏLƏRİNDƏ İBTİDAİ VƏ YUXARI SİNİFLƏRDƏ HANSI FƏNLƏR TƏDRİS OLUNUR?

**Məktəb hər bir şagirdin öz həyatını nəyə həsr edəcəyini müəyyən etdiyi bir yerdir. Müxtəlif ölkələrin təhsil müəssisələri uşağın bacarığının kəşf edilməsi məsələsinə fərqli yanaşırlar.**

**Bu məqalədə xarici ölkələrin məktəblərində tədris olunan fənlər haqqında sizləri tanış edəcəyik.**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI**

ABŞ məktəblərində ibtidai sinifdə tədris olunan vacib fənlər bunlardır: Arifmetika, yazıb-oxumaq, təbiətşünaslıq elmlərinin əsasları.

Orta siniflərin fənləri: Riyaziyyat, dil, təbiətşünaslıq elmləri (kimya, biologiya, fizika), sosial elmlər (tarix) və bədən tərbiyəsi.

Bunların hamısına sinifdən kənar seçim aktivlikləri əlavə olunur, məsələn: psixologiya, kriminalistika, jurnalistika, ritorika, ağac üzərində işləmə, kulinariya və s.

Yuxarı siniflərdə məcburidir: Riyaziyyat, ədəbiyyat, təbiətşünaslıq elmləri (kimya, biologiya, fizika), sosial elmlər (tarix və dövlət quruluşu) və bədən tərbiyəsi. Bunlara bir neçə seçim fənni də əlavə olunur: aktyor ustalığı, anatomiya, statistika, informatika, xarici dillər, rəsm, fotoqrafiq, heykəltəraşlıq, kinomatoqrafiya, teatr, orkestr, rəqs, kompüter qrafiki, vebdizayn, jurnalistika, ağac üzərində işləmə və avtomobil təmiri. Müxtəlif məktəblərdə bu siyahı fərqli ola bilər.

**İSRAİL**

İbtidai məktəb proqramı: İvrit dili, riyaziyyat, Tanax (müqəddəs yazılar toplusu), tarix, coğrafiya, ingilis dili, musiqi, əmək təlimi, rəsm, bədən tərbiyəsi. Əlavə fənlər təhsilin ilk ilindən var, hansıları ki, pedaqoq özü seçir. Robotları, fokus sənəti, sirk sənəti, teatr xoreoqrafiyası və baytarlığı öyrənmək olar.

Yuxarı siniflərdə şagirdlər özləri tədris istiqamətini seçirlər. Xarici dilləri, kimya, fizika, biologiya, musiqi, biotexnologiya, dizayn, teatr, kriminalsitika, psixologiya, iqtisadiyyat və şərab istehsalını öyrənmək mümkündür. Şagird məktəb diplomu ilə yanaşı mühasibat sertifikatı da ala bilər.

**YAPONİYA**

Başlanğıc məktəbdə uşaqlar yapon dilini (yalnız müasir deyil, orta əsrlər və qədim yapon dili), kalliqrafiya, proza, arifmetika, sosial elmlər (etika, tarix, etiket), musiqi, incəsənət, bədən tərbiyəsi və məişət işlərini öyrənirlər.

Orta məktəbdə sadalanan fənlərə informatika, təbiətşünaslıq fənni (kimya, fizika, biologiya, geologiya), tarix, ingilis dili və bir neçə seçim fənni əlavə olunur.

Yuxarı siniflərdə qeyd olunan baza fənlərindən əlavə iki istiqamət var: humanitar və təbiətşünaslıq elmləri. Yaponiyada tədrisin əsas məqsədi universitetə qəbul olmaqdır. Məhz buna görə də qalan fənləri şagirdlər özləri seçirlər, məsələn, aqronomiya, industriya, ticarət, balıqçılıq, tibbi hazırlıq, xarici dillər və s.

**SƏUDİYYƏ ƏRƏBİSTANI**

Burada vacib fənlərin siyahısına daxildir: Ərəb dili, din, riyaziyyat, təbiətşünaslıq elmləri, fizika. Ancaq tarix kimi humanitar fənlər tədris proqramından praktiki olaraq götürülüb (özəl məktəblərdə də).

**İRLANDİYA**

Burada yalnız iki vacib fənnə rast gəlirik: İngilis dili və riyaziyyat (bəzi məktəblərdə üçüncü fənn irland dilidir).

Qalan fənləri şagirdlər özləri seçir. Qeyd edilməlidir ki, burada şagirdlər öz gələcək həyatlarını bağlayacaqları fənlərdən imtahan verirlər. Seçim böyükdür: 34 fənn! Məsələn, mühasibat hesabatı, biznesin təşkil edilməsi, menecment, musiqi, rəsm, ağac üzərində işləmə, xarici dillər, aqronomiya, teatr, solfejio və s.

**AVSTRALİYA**

Başlanğıc məktəbdə riyaziyyat, dil, bədən tərbiyəsi və yaradıcılıq fənnindən əlavə ictimai çıxış etmək öyrədirlər.

Orta məktəbdə vacibdir: İngilis dili, riyaziyyat, nisbilik nəzəriyyəsi, kompüter texnologiyaları, tarix, coğrafiya, ekologiya, incəsənət (rəqs, musiqi, rəsm), bədən tərbiyəsi və elmlər (kimya, fizika, astronomiya).

Yuxarı siniflərdə şagirdlər gələcək ixtisaslarının girişini öyrənirlər: mühasibat, informasiya texnologiyaları, iqtisadiyyat... rəngarənglik böyükdür. Bundan əlavə 11-ci və 12-ci sinif şagirdləri müxtəlif şirkətlərdə təcrübə keçə bilirlər.

Burada bədən tərbiyəsi dərslərində maraqlı xüsusiyyətlərlə qarşılaşırıq. Adi məktəblərdə idman zalı yoxdur və bu dərs həyətdə keçirilir (yağışlı havada isə sadəcə keçirilmir). Qeyd edilməlidir ki, əgər məktəb okean sahilinə yaxın yerləşirsə yuxarı sinif şagirdləri bədən tərbiyəsi dərsində sörfinqlə məşğul ola bilərlər.

**İSPANİYA**

Başlanğıc təhsil: İspan dili, ədəbiyyat, ətraf mühit, bədən tərbiyəsi, riyaziyyat, xarici dil, yaradıcılıq və musiqi olduqca ciddi səviyyədə tədris olunur. Məktəbi bitirmək üçün şagirdlər bir neçə musiqi alətində sərbəst ifa etməlidirlər. Bu, əsasən fleyta olur, çünki asan daşınandır.

Orta siniflərə siyahıya sosial elmlər, coğrafiya, tarix və müasir texnologiyalar əlavə olunur.

Yuxarı siniflərdə bütün şagirdlər bir istiqamətdə üç əlavə fənn seçir. Cəmi dörd istiqamət var:

1. Humanitar elmlər.
2. Texnologiyalar.
3. Təbiətşünaslıq elmləri.
4. İncəsənət.

**ÇİN**

Başlanğıc məktəbin vacib fənləri: Riyaziyyat, çin dili, xarici dil, rəsm, musiqi, bədən tərbiyəsi və əmək təlimi.

Orta və yuxarı siniflər: Kimya, fizika, biologiya və informatika əlavə olunur. Baza fənlərin saatları çətinlik səviyyəsinə və saya görə hər il artır. Bu isə çin məktəbini ən çətin və psixoloji olaraq gərgin təhsil müəssisələrindən birinə çevirir.

**BÖYÜK BRİTANİYA**

Başlanğıc sinifdə uşaqlar ingilis dili, riyaziyyat, tarix, coğrafiya, musiqi və incəsənət öyrənirlər. Fənlərin yekun siyahısını valideynlər tərtib edir.

Yuxarı siniflərdə tədris proqramına əlavə olunur: Dinə giriş dərsi (bu fənn çərçivəsində etika və başqa dini baxışlar öyrənilir), tarix, coğrafiya, təbiətşünaslıq. Bundan əlavə, şagirdin öz maraqlarından dolayı kulinariya, musiqi, psixologiya, fotoqrafiq, hüquq, sosial təminat, mühasibat və incəsənət öyrənə bilər.

*Hazırladı: Tea İnaşvili*
*Gürcü dilindən tərcümə:* Aynurə Əliyeva

# ROBOTİZMİN YENİ ŞİKARI – GƏNCLİK



Gələcəyə dair ümidi, xəyalı olmayan gənclik təqlidə məhkumdur. Təqlid edən bir nəslin gəncliyi sahib olduğu nəslin dəyərlərinin itməsinə səbəb olar. Gənclik nəslin davamçısı olduğuna görə keçmiş nəsil gələcək nəslə sahib olduğu bütün dəyərləri ötürməklə məsuldur.

Bu gün "robotizim"in yeni şikarı halına gəlmiş gəncliyin bu vəziyyətə düşməsinin səbəbkarı kimlərdir görəsən? Burada üç variant var, birinci variant, ya əvvəlki nəslin yeni nəslə dəyərləri ötürməsində bir yalnışlıq, bir boşluq var və ya yeni nəsil ötürülən dəyərləri alarkən yetərli səviyyədə qəbul edə bilmir. İkinci variant, yeni nəsil keçmiş nəslin dəyərlərini önəmsəmir və önəmsəmədiyindən də ötürülənləri tam qəbul etmir, üçüncü variant ən acınacaqlı olanıdır, bəzən gəncləri təqlidə itələyən əl elə onları dünyaya gətirən valideynlərin əlidir.

Məsələyə kənar gözlə baxdığımız zaman hər üç variantın da qəbahətinin olduğu danılmaz bir faktdır. Lakin bu mövzuda aşkar olan o yalnışlara toxunmayacağam.

Bu gün gələcəyə ümidi, xəyalı olmayan gəncliyi necə canlandıra bilərik, ondan söz açmaq istəyirəm.

Keçmişdə olan yanlışlar üzündən bu gün gənclik bu səviyyədədir. Ancaq hər kəs keçmişdəki yanlışdan danışıb durur, keçmişdə ilişib qalanlar gələcəyə doğru baş qaldıra bilməzlər, bu, həyatın qanunudur, ağız-ağıza verib keçmişdən danışmaq yerinə, əl-ələ verib gələcəyin dərdinə düşməliyik.

Ümidi, xəyalı olmayan, həyatdan bir gözləntisi olmayan gənclik robotlaşmağa doğru gedir, bu da nəslin yox olmasına aparıb çıxarır.

Bu çarx belə davam edərkən tarixdəki "vassal" sözü ağlıma düşür. Vassal – özündən asılı vəziyyətə gətirməkdir.

Günümüzdə istifadə etdiyimiz yeməklər, içkilər, istifadə etdiyimiz texnologiya – hamısı cəm şəkildə nəslə təsir göstərməkdədir. Göstərilən bu təsir də heç şübhəsiz ki, mənfi təsirdir, müsbətdən söz gedə bilməz. Düzdür, texnologiyanın inkişafı bir çox faydalı şeylər qazandırdı nəslə, ancaq yanında yan təsirlərini də gətirdi ki, biz bu gün o mənfi təsirinə məruz qalırıq.

Gələcəyi bu sağalması çətin olan xəstəliyə itələyən amillərdən biri də heç şübhəsiz ki, ünsiyyət azlığı oldu.

Robotizm bəlasından qurtulmağın ən başlıca yolu gələcək nəsillə ünsiyyəti artırmaqdır, onlara olan qayğını lazımınca göstərməkdir, onların çəkdiyi maddi və mənəvi sıxıntılarla maraqlanmaqdır, onlara "bu nəslin sizə ehtiyacı var" sözündən çox duyğusunu hiss etdirməkdir və onların gələcəkdə bu nəslin bir fərdi olacaqlarını, fərd olaraq müstəqil qərarlar alacaqlarını və qərarı düzgün ala bilmələri üçün də fərd olmazdan əvvəl yetişkən insanlardan öyüd dinləyə bilmələrini anlatmaq lazımdır. Öyüd dinləyərkən əvvəla şəxsi düzgün seçmələri gərəkdiyini də onlara anlatmalıyıq. Həyata dair bir ümidi olmayan, həyatda öz yerini tuta bilməyən insandan müsbət bir öyüd, nəsihət çıxacağı da çox rastlanılmış bir vəziyyət deyildir.

Qısacası, gəncləri cəmiyyətə yenidən qazandırmalı, tutulduqları bu robotizm bəlasından xilas etməli və onlara yeni ümid, yeni xəyal aşılamalıyıq. Əks təqdirdə robotlaşmış gəncliklə qarşı-qarşıya qalacağıq ki, bu da heç xoşa gələn bir səhnə deyil.

Nəyə görə xoşa gələn səhnə deyil azacıq buna toxunmaq istəyirəm, çünki təqlid edən insanın qərar vermə potensialı olmaz, qərar verə bilməz, versə də arxasında dura bilməz, davamlı qərarsız qalar, fikrini cəmləyə bilməz, birilərindən davamlı asılı olar, özünə güvəni az olar, özünü başqalarından bacarıqsız görər, kim nə etsə onu təqlid edər, iradəsi zəif olar, başqalarının təsiri altına tez düşər və bunu özü də anlamaz. Gah sağını, gah solunu təqlid edər, ən sonda bu da onu yorar və içindən çıxılmaz bir vəziyyətə gətirib çıxarar. Psixoloji olaraq belə hallar təqlidçini çox yorar və davamlı birinin onu motivasiya etməsinə ehtiyac hissi duyar. Motivasiya edən olmadığında ağır psixoloji çöküntü hiss edər.

Təqlidçilərin ümidi, xəyalı olmadığı üçün günlük yaşantı sürərlər, onların geniş düşüncələri olmaz, cəmiyyətin uğradığı fəsadı düşünməzlər, həyatı sadəcə özlərindən və təqlid etdikləri kimsələrdən ibarət bilərlər, həyata baxış pəncərələri dar olar, həyat pərdəsində tam mərkəzdə təqlid etdikləri kimsələr durar, kənarda isə özləri seyirci kimi izləyərlər.

Təqlidçilərin həyat pəncərələri dar olduğundan, orada sadəcə təqlid etdikləri kimsələri gördüklərindən onlar üçün milli-mənəvi dəyərlər kimi anlayış olmaz, sadəcə təqlid edərlər və günü gəldiyində təqlid etdikləri kimsələr aradan çəkilər və təqlidçinin həyat pəncərəsində eyni rolu artıq özləri oynayarlar.

Beləliklə, əziz millətim, bizim qarşımızda çox böyük bir problem durur və əlimizdə var olanı itirdikdən sonra arxası ilə peşmanlanmağın heç bir faydası olmayacaq. Ona görə gənc nəslə sahib çıxmalıyıq, əks təqdirdə bizim nəslə sahib çıxmaq istəyən yüzlərlə qüvvələr vardır ki, bu qüvvələrin də nə niyyətli olduqları aşağı-yuxarı hər birimizə aşkardır.

**Lamiyə Hacıyeva (Eminova)**
*BGMİ-nin Qadınlar Şöbəsinin sədri*

## KÜTLƏVİ UZUNLUQ



Bu yazını oxumağa başladınızsa, dərindən nəfəs alaraq eninə-uzununa nəzər salın. Sizcə, bu yazı uzundur? Sizin cavabınız sizin üçün önəmlidir. Çünki uzundursa, bura qədər oxumadınız, yox, əgər uzun olmadığı qənaətinə gəldinizsə, deməli hələ də davam edirik.

Biz indi oxucudan çox yazanlardan da sınanırıq. Yazan o qədər azdır ki, oxucu axtarmağa belə həvəs qalmır. Hərdən isə "oxucu olsaydı, yazan olardı?" kimi yarı fəlsəfi, yarı qanqaraldan suallarla özümüzü ictimai çarmıxa çəkilməyə layiq görürük. Hərçənd biz hələ YAZAN axtarırıq, YAZAR deyil. Yazan bir-iki dəfə özünü sınayıb transformasiya olunaraq yazara çevrilir. Mən belə təsnifatlandırardım. Elə bir-iki dəfə yazanlarımız az var (bir az yox). Onlara da bir neçə dırnağın içinə alacağımız "oxucu" qənim kəsilir. Ümumiyyətlə, bizdəki oxucular elə zənn edirlər ki, yazarlar toyda ciblərinə beş manat basıb, mahnının kulminasiya nöqtəsində müğənnini özünə xitab etdirdiyi kimi onu da məcbur edə bilər ki, yazısının kulminasiya nöqtəsində həzrəti filankəsi yad eləsin. Oxucularımız əllərindən gələni edirlər ki, yazana və ya yazara qarşı linç kampaniyası başladıb, əlbir olub, ali dərəcədə onların dili ilə desək, "neprav" çıxartsınlar. Çıxardanlar tez-tez olur, ancaq öz aləmlərində.

Bir də qısa yazı sifariş edənlər tayfası var. Onlar da özlərini arif zənn edirlər. Sanki yazara söhbəti saqqız kimi uzatmaq zövq verir. Əslində isə yazar söhbəti nöqtəsinə qədər izah etməyə çalışır ki, sonra yazarı natamamlıqda günahlandırmayasınız, nöqtə.

Təbii ki, oxucu yazanı və ya yazarı özü ilə rinqə dəvət edib, bazar səviyyəsində müzakirə açmaqla yazarın alın yazısındakı səviyyəsizliklərdən birinə öz imzasını atır. Yazar isə elə taleyinin burxulan yerində olur – həm səviyyəsiz, həm də yiyəsiz. Qətiyyən heç kəsi qınamaq kimi bir niyyətimiz yoxdur. Əsla! Bizim də oxucuya ümidimiz elə Mirzə Fətəliyə, Mirzə Cəlilə qədər idi. Onların qandıra bilmədiklərinə biz nəyi və necə qandıracağıq? Elə bu yazı da qananlar üçündür. Qanmayanlar isə qanacaqsızlıq etməsələr yaxşıdır. Çünki qanacaq sözü də qanmaq felindən törəyir, əgər qandınızsa...

**Elməddin MƏMMƏDLİ**
*"Gündəlik – Gürcüstan" facebook səhifəsinin idarəçisi, Media İnkişaf Fondunun laboratoriyasının regional şəbəkəsinin üzvü.*

# GÜRCÜSTANDAKI AZƏRBAYCANLILAR: NİYƏ YAXŞI TƏHSİL VƏ PERSPEKTİVLİ İŞ ƏLDƏ ETMƏK BU QƏDƏR ÇƏTİNDİR?

***Yerlilər deyirlər ki, əsas səbəb gürcü dilinin öyrənilməsi ilə bağlı məktəblərdəki qeyri-adekvat vəziyyətdir.***

Gürcüstandakı azərbaycanlılar – dörd milyondan az əhalisi olan ölkənin 300 minə yaxın sakini. Azərbaycanlı icma əsasən Kvemo Kartli regionunda kompakt şəkildə yaşayır – özlərinə məxsus həyatlarıyla, ölkə əhalisinin böyük hissəsinin diqqətindən kənarda, gürcü cəmiyyətindən faktiki təcrid olunmuş vəziyyətdə.

İllər ərzində Gürcüstanda hökumət və qeyri-hökumət təşkilatları bu regionda vəziyyəti dəyişmək üçün çox sayda layihələr düşünüb. Böyük pullar xərclənib. Amma nəticə böyük deyil.

*"Bu insanlar yenə də ölkədəki ictimai-siyasi proseslərdə iştirak etmir və özlərini tam mənada cəmiyyətin bir hissəsi kimi hiss etmirlər"*, – bu, Gürcüstanın xalq müdafiəçisi Nino Lomcariyanın dəyərləndirməsidir. O 2019-cu ilin iyununda Tbilisidə keçirilən diskussiyalarda Gürcüstan azərbaycanlıları və erməniləri haqda danışıb.

Bu yaxınlarda Sosial Tədqiqatlar və Analiz İnstitutunun (Soros Fondunun Gürcüstan şöbəsinin dəstəyi ilə) apardığı tədqiqat da eyni nəticəyə gəlib.

**Niyə Avropa tələblərinə uyğun qanunvericiliyə rəğmən göstərilən səylər və böyük maliyyələr köklü dəyişikliklərə nail olmaq üçün yetərli olmur?**

Biz bu sualın cavabını Kvemo Kartli regionunda azərbaycanlı icmasında axtarmaq qərarına gəldik. Onlarla müsahibə və söhbətlər nəticəsində belə nəticəyə gəldik ki, problemin kökündə əslində icmanın inkişafının və inteqrasiyasının əsasını təşkil etməli olan məktəblər durur.

**Yerli pedaqoqların, məktəblilərin və valideynlərin yerli məktəblərə qarşı üç əsas iradı var:**

- *Gürcü dili tədrisinin aşağı səviyyədə olması.*
- *Ümumi təhsilin aşağı səviyyədə olması.*
- *Gürcü məktəbində təhsil çox vaxt problemin həlli deyil, yeni problemlərin yaradılmasıdır.*

Hər biri haqda daha təfərrüatlı.

**Gürcü dili tədrisinin aşağı səviyyədə olması**

Kvemo Kartlidə ümumilikdə 78 məktəb var. Onlardan 58-i qeyri-gürcü məktəbidir. Uşaqlar burada əsasən Azərbaycan və ya rus dilində təhsil alır.

Qeyri-gürcü məktəblərində gürcü dili birinci sinifdən tədris olunur. Amma şagirdlərin əksəriyyəti məktəbi gürcü dilində elementar ifadələri öyrənmədən bitirirlər.

**Bunun üç əsas səbəbi var.**

**Birincisi, gürcü dilinə həftədə cəmi beş dərs saatı ayrılıb.** Bu informasiya uşaqların niyə məktəbi gürcü dilində kəlmə kəsmədən bitirdiklərini anlamaq üçün yetərli ola bilərdi.

Amma ikinci səbəb də var – **dərslik problemi**. Dərsliklər keyfiyyətsiz hazırlanıb, amma hətta onlar da tapılmır. Pedaqoqlar deyir ki, uşaqlar bir neçə il davamlı olaraq kitabları bir-birinə ötürürlər və yeni şagirdlər artıq oxunmaz hala gələn kitablardan istifadə etməli olurlar.

Amma yerlilər deyirlər ki, hətta bu iki səbəb də ən əsas problem deyil. Ən böyük çətinlik **yerli spesifik tələblərə cavab verməyən pedaqoqlardır.**

*"Bizim gürcü dili müəllimimiz dərslərə Tbilisidən gəlir. O, Azərbaycan dilini ümumiyyətlə anlamır və müvafiq olaraq uşaqlarla ünsiyyət qura bilmir. Dərslər dil öyrənərək yox, müəllimlə uşaqların bir-birinə nə demək istədiklərini az-çox anlamaq cəhdləri ilə keçir"*, – Azərbaycan məktəblərindən birinin direktoru JAMnews-a danışıb. O, gürcü dili müəlliməsinə hörmət əlaməti olaraq özünü təqdim etmək istəməyib.

**Problemdən hansı çıxış yolları var?**

Əhali səviyyəsində çıxış yolu yoxdur, hər şey dövlətin problemi həll etmək arzusuna (və ya bu arzunun yoxluğuna) dirənir – bütün həmsöhbətlərimiz qəti şəkildə bunu ifadə edirdilər.

*"Fərdi repetitor? Maddi cəhətdən bu, bizim ailəmiz üçün tamamilə əlçatmazdır. Axı təkcə repetitora pul ödəmirsən, taksiyə də pul verməlisən ki, oğlum kənddən dərs keçmək üçün Marneuliyə gedib-gəlsin. Axı müəllim bura gəlməyəcək"*, – regionun kəndlərində yaşayanlar JAMnews-a təkrar-təkrar deyirdilər.

Etiraz etmək olar – axı dövlət büdcəsindən maliyyələşən pulsuz kurslar var. Amma yerli sakinlərlə söhbətdən sonra məlum oldu ki, onlar da problemi həll etmirlər.

Bu kurslara tələbat çox böyükdür. Amma bu kurslara qəbul olmaq üçün test imtahanı vermək lazımdır. Çoxları isə ya bu testlərdən keçə bilmir, ya da imtahan verməyə cəsarət etmirlər.

*"İmtahat götürənlərin qarşısında biabır olmaq istəmirəm"*, – Marneulidən olan 32 yaşlı fermer JAMnews-a deyib.

Bu, çoxluğa aiddir. Amma bu kursların və müxtəlif layihələrin, əlbəttə, nəticəsi də var, xüsusən də gənclər arasında.

Marneulinin rayon mərkəzində bir çox yuxarı sinif şagirdləri JAMnews-a bildiriblər ki, ya beynəlxalq təşkilatlar, ya da dövlət büdcəsi tərəfindən maliyyələşdirilən qeyri-formal təhsil proqramı onlar üçün böyük dəstək olub.

*"Mən 8-ci sinifdən sonra gənclər üçün layihələrdə iştirak etməyə başladım. Bir neçə yay məktəbində, düşərgələrdə, treninq və kurslarda olandan sonra çox tez gürcü dilində danışmağa başladım"*, – 17 yaşlı Aytən Rüstəmova danışır. O, təzəcə məktəbi bitirib və ali məktəbə imtahan verir. Fizioterapevt olmaq istəyir.

*"Dəvət olunduğum səfərlərdən sonra sosial şəbəkələrdə çoxlu gürcü "frendlərim" oldu. Universitetə qəbul olandan sonra isə, yəqin ki, gürcülərlə "canlı" tanış olacam və mənim gürcü dostlarım da olacaq, indiki kimi yalnız azərbaycanlılar yox.*

*İndi mən bu yolu keçdikdən sonra deyə bilərəm ki, məktəbdə həftədə beş gürcü dili dərsi çox mənasız vaxt sərfiyyatı idi"*, – Aytən deyir.

**Ümumi təhsilin aşağı səviyyəsi**

***"Paralel reallıq"*** – Gürcüstanın elm, təhsil, mədəniyyət və idman naziri İrina Abuladze etnik icmalardan olan uşaqların təhsil aldığı məktəbləri belə adlandırır.

Azərbaycan və erməni məktəblərinin uşaqları Gürcüstan məktəblərində təhsil alan şagirdlərin ümumi sayında azlıq təşkil edir – amma buraxılış imtahanlarından kəsilənlər arasında hər il onların sayı 20-25 faiz təşkil edir.

***"Niyə sizin uşaqlarınız çox vaxt imtahan verib, ali məktəbə qəbul ola bilmirlər?"*** – JAMnews müxbiri regionun əsas şəhəri Marneulidə bir çox azərbaycanlı valideynlərdən soruşub.

***"Çünki onlara çoxdan istefa vaxtı çatmış müəllimlər dərs deyir",*** – əksəriyyət belə cavab verib.

Məktəb müəllimləri hətta statistikaya görə də daha çox yaşlı insanlardır. Onlar əsasən Sovet təcrübəsini arxaların-da qoyublar. Amma onlardan çoxu şagirdlərin və valideynlərin şikayətlənməsinə görə, öz intizamlarında yenilikləri izləmir və onların müasir tədris metodikası haqda təsəvvürləri belə yoxdur.

**Hansı çıxış yolları var?**

Qeyri-gürcü məktəblərində aşağı kvalifikasiyalı müəllimlər problemini həll etmək üçün 2016-cı ildən IREX beynəlxalq təşkilatı Gürcüstan hökumətinin dəstəyi ilə ixtisasartırma proqramları həyata keçirməyə başlayıb.

Proqramın benefisiarları məktəb direktorları və 7-12-ci siniflərə dərs deyən kimya, biologiya, riyaziyyat, fizika, coğrafiya, ingilis dili müəllimləridir.

Bu kursu keçənlərdən biri Marneuli rayonu Candar kənd məktəbinin gənc direktoru Vüsal Bayramovdur.

*"Proqram heç də hamı üçün əlçatan deyildi və mən hər təlimdən sonra öz məktəbimizin müəllimləri üçün təlimi "təkrarlamağa" çalışırdım. Mənim özümə bu biliklər çox kömək oldu"*, – Vüsal deyir.

Bəs vəziyyətin ən labüd kimi görünən çıxış yolu ilə bağlı məsələ nə yerdədir – azərbaycanlı uşaqların gürcü məktəblərdə təhsil alması necə nəticə verir?

**Gürcü məktəbində təhsil – problemin həlli deyil, əlavə problemlərin yaranmasıdır**

Getdikcə daha çox azərbaycanlı valideyn uşaqlarını gürcü məktəblərinə qoyur ki, gələcəkdə övladı ali təhsil almaq, yaxşı iş tapmaq, siyasətçi, nazir ola bilmək şansı qazansın.

*"Mənim oğlum gürcü məktəbində oxuyur, yoldaşımla belə qərara gəldik ki, yalnız bu yolla o, doğma ölkədə özünü təsdiq edə biləcək"*, – adını açıqlamaq istəməyən Marneuli sakini deyib. – *"Azərbaycan dilini o, onsuz da bilir, daha çoxuna ehtiyac yoxdur"*.

Amma vəziyyət göründüyü qədər birmənalı deyil.

Marneulinin Qızılhacılı kəndindən 18 yaşlı Aysel Nəsibova danışır ki, ailəsində onun harada təhsil alması müzakirə olunanda atası gürcü məktəbində israr edib ki, qızı gürcü dilinə hakim olsun.

Amma 9-cu sinifdən sonra Aysel məktəbi yarım qoymalı olub – attestat imtahanını verə bilməyib.

*"Birinci sinifdən dərslər çox ağır gəlirdi. Evdə dərslərimə kömək edə bilmirdilər – repetitorla məşğul olmalı olurdum. Beşinci sinfə qədər gürcü dilini elementar səviyyədə bilirdim. Çox vaxt kimya, fizika dərslərində müəllimin izah etdiklərini ümumiyyətlə anlamırdım. Sinif yoldaşlarımdan xahiş edirdim ki, mənə kömək etsinlər, amma onlar da çox yardımçı ola bilmirdilər, axı onlar da mənimlə gürcü dilində danışırdılar"*, – Aysel danışır.

Vətəndaş İnteqrasiyası və Millətlərarası Münasibətlər Mərkəzinin rəhbəri Şalva Tabatadze hesab edir ki, azərbaycanlı uşaqların gürcü məktəblərinə verilməsi doğru deyil:

*"Gürcü məktəbləri və onların proqramları azərbaycanlı əhaliyə uyğunlaşdırılmayıb. Nəticədə həm gürcü dili, həm də digər fənləri zəif bilən şagird əldə etmiş oluruq. Amma tendensiya azərbaycanlı əhali arasında dərin kök salıb və təəssüf ki, dövlət bunu dəstəkləyir"*.

**Məktəbdən sonra**

Uzun illər boyu gürcü dilini bilmədikləri üçün azərbaycanlı və erməni gənclər Gürcüstanda ali təhsil almaq imkanından məhrum olub.

Vəziyyət 2009-cu ildə dövlət "1+4" təhsil proqramını işə salandan sonra dəyişməyə başlayıb.

İdeya ondan ibarətdir ki, gürcü dili ana dili olmayan abituriyentlər ali təhsil müəssisələrinə qəbul imtahanını ana dilində versin, daha sonra isə bir il müddətində intensiv gürcü dilini öyrənsinlər. Bundan sonra onları avtomatik olaraq seçdikləri tədrisin gürcü dilində keçildiyi fakültəyə keçirirlər.

2017-2018-ci tədris ilində bu hazırlıq proqramından 792 tələbə yararlanıb. Bu, əvvəlki illərlə müqayisədə iki-üç dəfə çoxdur.

Amma özlüyündə bu rəqəm azərbaycanlı və erməni məzunların ümumi sayı ilə müqayisədə çox azdır. Onlardan çox az hissəsi tələbə olur.

Başqa bir təəssüf doğuran statistika da mövcuddur.

Azərbaycanlı və erməni abituriyentlərin ən azı 80 faizi hazırlıq kursundan sonra təhsili dayandırır və ya bakalavriatın ortasından universiteti atır. Həmsöhbətlərimizin çoxunun dediyinə görə, oxumaq çox çətin olur, çünki məktəblərin verməli olduğu ümumi təhsil səviyyəsi və gürcü dili biliyi yetərsiz olur.

Müəllif: Şəlalə Əmircanova

Mənbə: JAMnews

## SAİRMEDƏ TURİZM MƏKTƏBİ AÇILACAQ



Gürcüstanın Sairme kurort zonasında turizm məktəbi açılacaq. Bu barədə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi məlumat yayıb.

Təhsil müəssisəsinin yaradılmasında məqsəd turizm sektorunun inkişaf etdirilməsidir.

BMT-nin Ümumdünya Turizm Təşkilatı və İsveçrənin "SHL" məktəbi müəssisənin təsis olunmasına dəstək göstərəcək.

Regional hab rolunu oynayacaq akademiyada hər il 200 gənc təhsil alacaq. Məzunlar avtomatik olaraq işlə təmin olunacaqlar. Tədris proqramlarını beynəlxalq tərəfdaşlar təqdim edəcəklər.

Qeyd edək ki, 2018-ci ilin noyabrında BMT-nin Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Polikaşvili və Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili turizm sahəsində təhsil layihələrinin həyata keçirilməsi ilə bağlı memorandum imzalayıblar.

## MUĞANLI KƏND MƏKTƏBİNİN TƏMİRİNƏ BAŞLANILIB



Qardabani rayonunun Muğanlı kəndində illərdir təhsilə yararsız vəziyyətdə olan Azərbaycan dilli məktəbdə təmir-bərpa işlərinə başlanılıb.

Bu barədə "Report"un yerli bürosuna Qardabani rayonunun Sakrebulo sədrinin müavini Rəfi Orucov məlumat verib.

Onun sözlərinə görə, Muğanlı kənd məktəbinin təmir olunması rayonda səbirsizliklə gözlənilən layihə idi: "Məktəbin təmir-bərpa işlərinə dövlət büdcəsindən 305 min lari vəsait ayrılıb. Təmir işlərinin sentyabr ayının 10-na qədər başa çatdırılacağına zəmanət verilib".

R.Orucov qeyd edib ki, təmir işləri zamanı təhsil ocağında mövcud ciddi çatışmazlıqlar və problemlər aradan qaldırılacaq.

Qeyd edək ki, Muğanlı kənd məktəbində 500-ə yaxın şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 60-a yaxın müəllim məşğul olur. Üçmərtəbəli təhsil müəssisəsi 40 ildən artıqdır istifadəyə verilsə də, bu günə qədər binada əsaslı təmir işləri aparılmayıb.

## MARNEULİDƏ DÖRD YENİ FÖVQƏLADƏ HALLARIN KOORDİNASİYASI VƏ TƏCİLİ YARDIM MƏRKƏZİ TİKİLƏCƏK



Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Fövqəladə Halların Koordinasiyası və Təcili Yardım Mərkəzinin direktoru Avtandil Talakvadze və Marneuli meri Zaur Darğallı bələdiyyədə dörd yeni Təcili Tibbi Yardım Mərkəzinin tikinti prosesi ilə tanış olublar.

Marneuli şəhərində, Kürtlər, Sadaxlı və Şaumiyan kəndlərində beynəlxalq standartlara uyğun olan mərkəzlərin tikintisini Regional İnkişaf və İnfrastruktur Nazirliyi bələdiyyələrlə birgə həyata keçirir. İşlər başa çatdıqdan sonra əhali yüksək səviyyəli xidmətdən istifadə edə biləcək.

Qeyd edilməlidir ki, Fövqəladə Halların Koordinasiyası və Təcili Yardım Mərkəzində 60-a yaxın yerli sakin işlə təmin olunacaq.

## AXLILƏLƏ VƏ SEYİDQOCALI KƏNDLƏRİNDƏ YOLLAR ÇƏKİLİR



Marneuli bələdiyyəsinin Axlılələ və Seyidqocalı kəndlərində yollara asfalt örtüyü çəkilir. Bələdiyyənin meri Zaur Darğallı daxili yolların bərpası prosesi ilə yerində tanış olub və yerli sakinlərlə görüşüb. O, həmçinin əhalini narahat edən problemlər haqda da söhbət aparıb.

Layihə çərçivəsində Axlılələ kəndində 826 metr, Seyidqocalıda isə 1100 metr uzunluğunda yol çəkilir. Bunun üçün yerli büdcədən təqribən 682 815 lari vəsait ayrılıb.

Bələdiyyə miqyasında yol infrastrukturunun qaydaya salınması məqsədi ilə bu il müxtəlif kəndlərdə geniş miqyaslı işlərin həyata keçirilməsi planlaşdırılır.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI ALMANİYADA PEŞƏ TƏHSİLİ ALA VƏ İŞLƏYƏ BİLƏCƏKLƏR



Gürcüstanın Almaniyadakı səfiri Elquca Xokrişvilinin bəyanatına görə, Almaniyada qəbul olunan və 6-7 aya qüvvəyə minəcək qanuna əsasən, Gürcüstan vətəndaşlarına bu ölkədə peşə təhsili almaq və leqal işlə təmin olunmaq imkanı veriləcək.

"Almaniya Bundestaqı, sonra isə yuxarı palata müvafiq qərar qəbul edib və 6-7 aya qüvvəyə minəcək. Yeni qanun Gürcüstan vətəndaşlarına da imkan verəcək ki, Almaniyada leqal işlə təmin olunsunlar. Gürcüstan vətəndaşının imkanı olacaq ki, əvvəlcədən Almaniyada işlə təmin edən tapsın və sonra iş vizası alsın. Həmçinin asanlaşdırılmış şəkildə imkan yaradılacaq ki, Gürcüstan vətəndaşı Almaniyada peşə təhsili alsın. Bu qanun 6 ay ərzində Almaniyada olmaq və iş yeri axtarmaq imkanı verir. Biz qanunun tərcüməsi üzərində çalışırıq ki, bu məlumat ətraflı olaraq Gürcüstan vətəndaşlarına çatdırılsın", - deyə səfir bildirib.

E.Xokrişvili mövsümi işlə təmin etmə haqqında da danışıb və qeyd edib ki, bu baxımdan da müəyyən yeniliklər var: "Səfirlik mövsümi olaraq yayda kənd təsərrüfatı sektorunda 3 aylıq işlə təmin etmək üzərində də çalışır. Məhsul yığılan zaman alman şirkətləri fəhlə axtarır ki, 3 aylıq işlə təmin etsinlər. Biz onların hansı şəraitdə yaşamalı olduqlarını yoxlayırıq – onların sağlamlıq sığortası varmı, nəqliyyat xərcini kim ödəyəcək, əmək haqqı nə qədər olacaq və s. Bir neçə şirkətlə əlaqəmiz var və onlar gələn il uyğun meyarlarla 3000-10000 nəfəri mövsümi işlə təmin etməyə hazırdırlar".

## DİN XADİMLƏRİ GÜRCÜ DİLİNİ ÖYRƏNƏCƏK



Marneulidə dini azlıqlar üçün dövlət dilinin tədrisi proqramına başlanılıb. Üç aylıq proqram çərçivəsində Marneuli, Dmanisi və Saqareco rayonlarından olan ruhanilər gürcü dilini öyrənəcəklər.

"Ruhanilər üçün dövlət dili" adlı proqramla bağlı memorandum bu ilin mayında Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi və Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbi arasında imzalanıb.

Proqramın əsas məqsədi dini azlıqlar arasında dövlət dilinin populyarlaşdırılması və vətəndaş inteqrasiyasına dəstək verməkdir. Gürcü dili kursları üçün xüsusi tədris vəsaitləri də hazırlanıb.

## DİZELİN KEYFİYYƏTİ İLƏ BAĞLI YOXLAMALARA BAŞLANILIB



Yanacaqdoldurma məntəqələrində dizelin keyfiyyətinin yoxlanılmasına başlanılıb. Yoxlamanı Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Ətraf Mühitə Nəzarət Departamenti həyata keçirir.

Ölkə üzrə fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrindən 120 nümunə götürüləcək və dizel yanacağının tərkibində setan, sıxlıq, kükürd və yarımsiklli qoxulu karbohidratların həcmi müəyyən olunacaq.

Deprtament əməkdaşları təftişi xəbərdarlıq etmədən aparacaq. Nümunələr beynəlxalq səviyyədə akkreditasiya olunmuş laboratoriya və Levan Samxarauli adına Məhkəmə Ekspertizası Milli Bürosunda yoxlanılacaq. Araşdırma dizel yanacağının qanunvericiliyin tələblərinə uyğunluğunu müəyyən edəcək. Gürcüstanın İnzibati Xətalar Məcəlləsinə əsasən, standartlara uyğun olmayan benzin və dizel yanacağının ölkə ərazisinə tədarük olunmasına 8 000 lari cərimə tətbiq olunur.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 31 İYUL 2019-CU İL/ №014 (94)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## AZƏRBAYCANDAN GÜRCÜSTANA SƏFƏR EDƏN RUSİYA VƏTƏNDAŞLARININ SAYI ARTIB



TBC Bankın "TBC Research" bölməsinin araşdırmasına əsasən, iyulun 1-dən 21-nə qədər Gürcüstana 142 477 Rusiya vətəndaşı səfər edib. 1-7 iyul arasında rusiyalı ziyarətçilərin sayı 50 030, 8-14 iyul arasında 41 423, 15-21 iyul arasında isə 51 024 nəfər təşkil edib.

Bu ayın birinci həftəsində rusiyalı ziyarətçilərin sayında 4,1%, ikinci həftəsində 21,4%, üçüncü həftəsində isə 13,5% azalma qeydə alınıb.

Hesabat dövründə Gürcüstana gələn rusiyalıların 9 699 nəfəri Azərbaycandan səfər edib.

Rusiya və Gürcüstan arasında birbaşa aviadaşımalara tətbiq olunan qadağadan sonra (8 iyul) Azərbaycandan Gürcüstana quru yol vasitəsilə səfər edən rusiyalıların sayında artım qeydə alınıb. Belə ki, 8-14 iyul tarixləri arasında Azərbaycandan Gürcüstana 2 887 nəfər, 15-21 iyul tarixləri arasında isə 3 629 nəfər Rusiya vətəndaşı səfər edib.

İyul ayının üçüncü həftəsi ərzində Gürcüstana Azərbaycandan səfər edən Rusiya vətəndaşlarının sayı illik müqayisədə 3,5% artıb.

## GÜRCÜSTANDA ONKOLOJİ XƏSTƏLƏRİN SAYI ARTIB




Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi ölkə üzrə onkoloji xəstəliyin daha geniş yayıldığı bölgələri araşdırıb.

Aaraşdırmaların nəticələrinə görə, Tbilisi onkoloji xəstəliyin ən çox yayıldığı ərazi hesab olunub.

Cari ildə paytaxtda 3720 nəfər bədxassəli şişi olan xəstə qeydə alınıb. Bu da 100 min nəfərə 319,3 fakt deməkdir. Bu, ölkənin regionları üzrə ən böyük göstəricidir.

İkinci yerdə Raca-Leçxumi və Zemo Svaneti regionları dayanır. Bu bölgələrdə əhalinin hər 100 min nəfərindən 303,6-sı bədxassəli şişlərdən əziyyət çəkir.

Siyahıda 262,3 faktla (hər 100 min nəfərə 262,3 fakt) Acarıstan Muxtar Respublikası dayanır.

Ötən il isə Gürcüstanda 9635 nəfər bədxassəli şişdən əziyyət çəkən xəstə qeydə alınıb. Bu da əhalinin hər 100 min nəfərinin 258,5 nəfəri deməkdir.

## GÜRCÜSTANDA QADIN SÜRÜCÜLƏRİN SAYI NƏ QƏDƏRDİR?



Galt & Taggart şirkətinin araşdırmasına əsasən, gələcəkdə avtomobilə tələbatın artması Gürcüstanda qadın sürücülərin sayını da artıracaq, avtopark yenilənəcək və məişət gəliri də çoxalacaq.

Gürcüstanda qadın sürücülərin sayı hər il artır. Sürücülük vəsiqəsi olan 1.23 milyon şəxsdən 23%-i qadındır.

Bundan əlavə, Galt & Taggart-ın fikrincə, avtomobillərin məcburi texniki baxışdan keçməsi sürücüləri yeni maşınlara keçməyə istiqamətləndirir. Məlumata görə, Gürcüstanda qeydiyyatdan keçmiş avtomobillərin 81,4%-nin istehsal müddəti 12 ildən yuxarıdır.

"Məcburi texniki baxış avtomobil hissələrinə də tələbi artırır, həmçinin avtoservislərə müraciət də artacaq. Bunlarla yanaşı avtomobillərin reeksportuna olan yüksək tələbat də gələcəkdə avtomobil biznesinin gəlirini artıracaq", - araşdırmada deyilir.

## ƏT BAHALAŞIB



Mal ətinin qiymətində 2 lari bahalaşma qeydə alınıb. Tbilisinin aqrar bazarlarında bir ay bundan qabaq kiloqramı 18 lari olan mal əti hazırda 20 lariyə satılır. Mağazalarda isə ətin qiyməti 21 laridir.

Ətin bahalaşması bu qida məhsulunun çatışmazlığı və xarici ölkələrə diri mal-qaranın ixracı ilə əlaqələndirilir.

Mal ətinin qiymətinin artmasının davam edəcəyi proqnozlaşdırılır.

## GÜRCÜSTANDA CİNAYƏT HALLARI ARTIB



Daxili İşlər Nazirliyinin hesabatına əsasən, bu ilin yanvar-may aylarında Gürcüstanda 28 290 cinayət faktı qeydə alınıb.

Cinayət hallarının yalnız 8 383-nün və ya 29,63%-nin üstü açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayət əməllərinin sayı 4 578 hal, yaxud 19,31% artıb.

Hesabat dövründə qeydə alınan cinayət hallarının böyük əksəriyyəti əmlaka (11 730), sağlamlığa zərər vurma (5 021), insanlara (1 219), insan haqları və azadlıqlarına qarşı (1 395) törədilmiş qeyri-qanuni əməllərlə bağlı olub.

## "EURONEWS" GÜRCÜ DİLİNDƏ XƏBƏRLƏR YAYIMLAYACAQ



Dünyanın aparıcı xəbər kanalı olan "Euronews" Gürcüstanda fəaliyyətə başlayır. Bununla bağlı yerli "Silknet" şirkətinin Müşahidə Şurasının sədri Giorgi Ramişvili və kanalın baş direktoru Mişel Peters arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Sənədə əsasən, "Euronews" kanalının Gürcüstan xidməti beynəlxalq və yerli xəbərləri gürcü dilində yayımlayacaq. Xəbərlərin 20%-i Gürcüstana aid olacaq.

Xidmət müstəqil olacaq və formalaşdırılacaq redaksiya heyətinin fəaliyyətinə "Euronews" kanalının rəhbərliyi nəzarət edəcək.

Qeyd edək ki, 1993-cü ildə yaradılan "Euronews" dünyanın 160 ölkəsində 12 müxtəlif dildə yayımlanır.

## RUSİYAYA UÇUŞLARIN DAYANDIRILMASI "GÜRCÜSTAN HAVA YOLLARI" ŞİRKƏTİNƏ 25 MİLYON DOLLAR ZƏRƏR VURUB

Rusiyaya birbaşa aviadaşımaların qadağan olunması "Gürcüstan hava yolları" şirkətinə, təxminən, 25 milyon dollar zərər vurub. Bu barədə aviaşirkət məlumat yayıb.

Rusiyaya uçuşların dayandırılması Gürcüstanın əsas aviadaşıyıcısının maliyyə durumuna ciddi təsir edib. Aviaşirkət satılan biletlərinin 80%-ni geri qaytarmalı olub, bilet almaq istəyən sərnişinlərin sayı isə kəskin azalıb.

Şirkət rəhbərliyi maliyyə yardımı ilə bağlı Gürcüstan hökumətinə müraciət edib. Hökumət "Gürcüstan hava yolları"nın ağır maliyyə vəziyyətini nəzərə alaraq müraciəti nəzərə alıb və zərərin müəyyən hissəsini kompensasiya etməyə qərar verib.

Qeyd edək ki, Rusiya və Gürcüstan arasında birbaşa aviadaşımalara iyulun 8-dən qadağa qoyulub. Hazırda "Gürcüstan hava yolları" şirkəti Rusiyadan Yerevan vasitəsilə Ermənistanın tərəfdaş şirkətinin dəstəyi ilə Gürcüstana sərnişin daşıyır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.